ƏLİRZA HƏSRƏT

# *Təyyarəçi nəğmələri*

(Dastan-poema)

"Elm və təhsil"
Bakı - 2026

C(Az)2
T-80
Redaktor, **ƏKBƏR QOŞALI**
*DGTYB-nin təsisçisi və başqanı,*
*Azıəbaycan Yazıçılar və*
*Jurnalistlər birliyinin üzvü,*
*Şair,yazıçı,publisist və araşdırmaçı*

**Əlirza HƏSRƏT.**
**TƏYYARƏÇİ NƏĞMƏLƏRİ** *(Dastan-poema)*
Bakı, "Elm və təhsil", 2026, 84 səh.

Vətənpərvərlik mövzusunda qələmə alınmış "Təyyarəçi nəğmələri" dastan-poeması tanınmış şair Əlirza Həsrətin oxucularla on ikinci görüşüdür. Bu əsər Naxçıvan Muxtar Respublikasının Nehrəm kəndində dünyaya göz açmış, Birinci Vətən müharibəsində Qarabağ səmasında qəhrəmancasına şəhidlik zirvəsinə ucalmış hərbi təyyarəçi baş leytenant Yusif Yaqub oğlu Vəliyevin həyat və döyüş yolundan bəhs edir.

Ə. Həsrət Poemanın bəzi fraqmentlərində şəhid qəhrəmanımızın fədakar ömür-gün yoldaşı Arzu Nehrəmlinin həyat hekayələrindən istifadə edilmişdir.

4702000000
N-98-2026 qrifli nəşr

© **Əlirza HƏSRƏT, 2026**

# TƏYYARƏÇİ NƏĞMƏLƏRİ
## (Dastan-poema)

*(Min doqquz yüz doxsan ikinci ilin may ayında Şuşanın işğalından dörd gün sonra,Laçının işğalından isə altı gün əvvəl,Birinci Vətən müharibəsi zamanı torpaqlarımızın düşmən işğalından azad olunması uğurunda Qarabağ səmasında canını qəhrəmanlıqla fəda edən, Nehrəmli şəhid təyyarəçi Baş leytenant Yusif Yaqub oğlu Vəliyevə ithaf olunur. Naxçıvan, Nehrəm kəndi 14 fevral 1968-Qarabağ səması 12 may 1992)*

# PROLOQ

## 1

Gündən-günə "çiçəklənən" SSRİ-nin gülləri Min doqquz yüz səksən doqquzuncu ildən başlayaraq,saralıb solmağa başladı.Hakimiyyət orqanlarında baş verən çəkişmələr,özbaşınalıq,qərəzlilik ölkənin bütün Respublikalarında öz əks-sədasını göstərirdi. Qonşu düşmənlərimiz tərəfindən Şuşadakı Topxana meşəsində ağacların qırılıb talanması Vətənimizə qarşı törədilmiş böyük haqsızlıq və təxribat idi.Bu da Azərbaycan xalqını düşmənlərə qarşı qəzəblənməyə,mübarizə aparmağa məcbur etdi.Sovet hökumətinə qarşı etirazlar İran-Naxçıvan sərhədində xalqımızın,bütün naxçıvanlıların nümayişləri,mitinqləri dünyaya səs salmışdı.

Arzuyla Şəkərin bir-birləriylə qol-boyun olub, yüksək səslə Azadlıq!...Azadlıq!...söylədikləri şüarı, hamının eyni ahənglə təkrar etmələri hələ də qulaqlarımızda əks-səda verir.Moskvada nəşr olunan "Oqonyok" jurnalında, "Pravda","Komsomolskaya pravda" və başqa qəzetlərdə yayımlanan Arzuyla Şəkərin şəkilləri o zaman Nehrəmdə,bütün Naxçıvanda əl-əl,ev-

ev gəzib dolaşırdı...Xalqın nankorlara qarşı qəzəbini soyutmaq mümkün deyildi....

Otuz bir dekabr min doqquz yüz səksən doqquzuncu ildə İran-Naxçıvan arası sərhəd dirəkləri xalqın etirazına tab gətirməyib,başlarını yerə qoydular. Tikanlı tellər sökülüb dağıdıldı.O uzun illərin o taylı-bu taylı həsrətliləri əlvida dedilər ayrılığa.. Sovet hərbi qoşunlarının 20 yanvarda Bakıda törətdikləri qırğın,vətəndaşlarımızı daha da qəzəbləndirdi.Quduzlara qarşı mübarizə aparmaqdan əsla ruhdan düşmədilər.Azğın düşmən torpaqlarımızı işğal etməkdə israrlıydı.Dinc insanlara qarşı soyuq silahla zorakılıq halları baş alıb gedirdi.

Naxçıvanın Kərki kəndi və Qazaxın yeddi kəndi düşmənlər tərəfindən qəddarcasına işğal olundu,dinc əhali öz el-obalarından didərgin salındılar.Tovuzun da bir neçə kəndində dinc insanların məhv edilməsinə BMT də,ATƏT də,bütün Dünya birlikləri də göz yumurdular...

...O zaman Latviyada Ali Hərbi Aviasiya Məktəbində təhsil alan Yusif Vəliyev Azərbaycanda baş verən hadisələrə görə çox nigaran idi. Təhsilini başa vuran kimi Vətənə qayıtmaq niyyətindəydi gənc təyyarəçi...

# ZİRVƏLƏR GÖSTƏRİR ƏZMİN, VÜQARIN

Cücərib torpaqda şəhidlər dən-dən,
Bayraqla bəzənib gülür el,Vətən.
Memar Əcəmidən,Mirzə Cəlildən,
Gör nə xariqələr var Naxçıvanda.

Bəlkə ad qazanıb onda Qu belə,
Kimdir son şərqini oxudu belə?
Yayın istisində nəydi bu belə,
Ruhuma yağırdı qar Naxçıvanda.

Ulduzlar dağılıb,sökülübdür dan,
Verib təbiətə "Gəmiqaya" can.
Gün doğan Şəhidlər Xiyabanından,
Nə gözəl yayılıb nur Naxçıvanda.

Ürəyim ocaqdır,ahım da tüstü,
Bürünüb dumana Bozdağın üstü.
İgid təyyarəçi Yusifin büstü,-
Olubdur Vətənə yar,Naxçıvanda.

Zirvələr göstərir əzmin,vüqarın,
Çöhrəsi nə gözəl gülür dağların.
Sən də hər igidin,hər sənətkarın,-
Ay şair,vəsfinə dur Naxçıvanda!

***

Soyuq qış günü Nehrəmdə,
Dünyaya göz açdı Yusif.
Hamı kimi böyümədi,
Tez yeriyib-qaçdı Yusif.

Əylə gedən ömrü,əylə,
Kim öyünməz belə bəylə?
Vətən boyda sevgisiylə,-
Dünyaya nur saçdı Yusif.

Yurdu görüb bəd ayaqda,
Gözü üç rəngli bayraqda.
Qərar tutmadı torpaqda,
Göy üzünə uçdu Yusif.

Eşq mülkündə Xana dönüb,
Əcəb şöhrət-şana dönüb.
Dillərdə dastana dönüb,-
Zirvələrdə tacdı Yusif.

***

Könlümü oxşayır sakit üfüqlər,
Üstümə çəkmişəm ağ buludları.
Təyyarə tüstüsü gözümü tutub,
Arzunun xəbəri olmasın barı.

Qanadın qan tutub təyyarələrin,
Qışın ortasında bu nə bürküdür?
Qəfəsə salıblar yerdə quşları,
Göydəki quşları ahım hürküdür.

...Xəyalım min yerdən göydə yol salıb,
Durnalar baş qoyub ayaq izimə.
Göz yaşım yuxarı axır deyəsən,
İslanmış saçlarım düşüb üzümə.

***

Gözlərim qərib elçidir,
Göylər ovcumun içidir.
Böyüyüb,təyyarəçidir,
O şıltaq balaca Yusif.

Ulduzlardır göyün xalı,
Hər tərəf şair xəyalı.
Ürəyi vətən sevdalı,
Gözləri alaca Yusif.

Qar əriyib döndü selə,
Gül yaxasın açdı yelə.
Arxadır elata,elə,
Dağ Yusif,qalaça Yusif.

# ...ELƏ BAĞLIYDILAR BİR-BİRLƏRİNƏ, YUSİF ZƏVVAR İDİ, ARZU PİRİYDİ

***

...Könlünü verdiyi söz çəmənindən,-
Əyilib bir qönçə dərək,Arzunun.
Qəhrəman Yusifdən yazdığım əsər,
Ruhunu oxşasın gərək Arzunun.

Yarı ümid payı,yarı aldanış,
Bunun ayrılığı,həsrəti tanış.
Şeirdən söhbət aç,elmdən danış,
Necədir əhvalı görək Arzunun?!

Dilindən od yağan bu qıza baxın,
Min adam içində yalqıza baxın.
Bu şeir yazdığım kağıza baxın,
Qələm özümündür,ürək Arzunun.

***

...Öz velosipedi ilə Nehrəmdən Naxçıvana, Naxçıvanda Araz çayının sahillərinə,Araz çayında güzgülənib-daranandan sonra Bozdağın ətəklərinəcən baş alıb gedirdi hamının sevimlisi şıltaq Arzu... Kənddə hara getsəydi,hansı oyunu oynasaydı,hansı idman yarışında iştirak etsəydi belə,mütləq sevimli dostu Şəkər də onun yanında olmalıydı. Bir-birlərinə mehrlərini elə salmışdılar ki... Arzuyla Şəkər kəndəki dağlardan baxanda, Nehrəmi ovuclarına götürmək istəyirdilər. Günəşə sən çıxma,mən çıxım,Aya sən baxma,mən baxım deyirdilər.Özlərini hamıdan ağıllı,güclü,gözəl sanırdılar bu dəcəl qızcığazlar.

Məktəbdə bütün müəllimlərin və şagirdlərin ən sevimlisiydi Arzu.

O,bütün fənləri əla qiymətlərlə oxuyurdu və əla qiymətlərlə də bitirdi orta məktəbi hamının sevimlisi dəcəl Arzu.

...Gözəl təbiəti var Naxçıvanın,
Bura beşiyidir şöhrətin-şanın.
Gecəni üzündən salanda Günəş,-
Seyrinə daldınmı sökülən danın?

Gözündə bir idi qış da,payız da,
Sanki sehrliydi qələm-kağız da.
Yusifin könlünü tilsimə salan,-
İlahi gözəllik vardı o qızda.

Şəkərlə "Gizlən-qaç","beş-daş" oynayır,
Arzuyla oynayan,çaş-baş oynayır.
Gözünə dəyəndə o sütül oğlan,
Dodaqlar gül açır,göz-qaş oynayır.

Açılan çiçək var şehi bir udum,
Çətin ki güllənər qərib umudum.
Gərək alaydıları bu gənclər onda,
Xeyir-duasını Dədə Qorqudun.

***

...Elə bağlıydılar bir-birlərinə,
Yusif zəvvar idi,Arzu piriydi.
Məktəb bu gənclərin könül meracı,
Sinif otaqları görüş yeriydi.

Hər gün dərsdən sonra oğlanlar-qızlar,-
Dəstə-dəstə gəlib top oynardılar.
Arzu götürəndə topu əlinə,
Yusifin ürəyi dönürdü dağa.

Başqaydı bu vaxtın,vədənin hökmü,
Burda bir möcüzə vardı,inanın.
Hayanda görsəydi o gözəl qızı,
Gözləri gülürdü o gənc oğlanın.

Hər dəfə məktəbə gələndə Yusif,
Çalışır o qızla qoşa durmağa.
Kömək istəyirdi guya kimdənsə,-
Misal həll etməyə,tənlik qurmağa.

Bu sarışın gözəl,şahzadə xanım,
Vallah,başdan-başa işvəydi,nazdı.
Yusifi görəndə onun yanında,
Burda nə işin var,deyən olmazdı.

Havası dəymişdi bu cavanlara,
Qapıcıq dağının duman-qarının.
Sevənlər gözündən yayınmazdılar,
Qonşu məhəllənin arvadlarının.

...Yusifi ayırır özündən xəyal,
Qanadlanıb uçur göydə şahintək.
O qızın eşqiylə elə dolmuşdu,
İgidin köksünə sığmırdı ürək.

Nüşabə qeyrətli,Tomris cürətli,
Arzuya göydə min ulduz seçmişdi.
Qəhrəman Yusifin bu məhəbbəti,-
Məcnun sevdasını ötüb keçmişdi.

Könlünü aldığı o mələk qıza,
Tələsdi göylərdən ulduz dərməyə.
Elə fərəhliydi,elə çılğındı,
İstərdi dağlar da ona baş əyə.

...Tarixə yazılan qırmızı xətlə,
Yusiftək oğlun var igid,qəhrəman.
Zərdüşt ocağından köz götürübsən,
Heç zaman sönməz ki odun,Naxçıvan.

***

Dostluqda üz ağlığıyla,
Yalandan uzaqlığıyla,
Öz dəcəl uşaqlığıyla,
Düşmüşdü hər dilə Arzu.

Başqaydı ilhamı,təbi,
Sevirdi hər təzə dəbi.
Bitirdi orta məktəbi,-
Əla qiymətlərlə Arzu.

Yandırdı şeir şamını,
Elmdən aldı kamını.
Şirin diliylə hamını,
Tez alırdı ələ,Arzu.

Gözündə bir qədəhlik yaş,
Bu nə sevgi,bu nə təlaş?
Hər ürəkdə olaydı kaş,
Belə istək,belə Arzu...

***

...Arzu Koroğlunun Nigarı kimi,
Elə mərdanəydi,elə mərd idi.
Leyli yaraşıqlı o dəli qıza,-
Məcnuntək vurulmaq ayrı dərd idi.

Yusif danışanda Mirzə Cəlildən,
Hüseyn Caviddən deyirdi Arzu.
Onda gözlərində müəllimlərin,-
Özü başdan-başa şeirdi Arzu.

Gah maşın düzəldir,gah da təyyarə,
Partanın üstündə qələm-kağızdan.
Məktəb yoldaşları,müəllimləri,-
Hər yerdə danışır o dəcəl qızdan.

Arzu oğlanların ağ köynəyinə,-
Gah quş rəsmi çəkir,gah çiçək şəkli.
Şərəf lövhəsində hələ də durur,
Boynu qalstuklu o göyçək şəkli.

Min oyun çıxarır velosipeddə,
Gah konfet verirlər,gah çiçək qıza.
Qonşu oğlanları qorxularından,-
Gözucu baxırlar o göyçək qıza.

Nehrəmdə minərdi velosipedə,
Sürərdi birbaşa düz Naxçıvana.
Məhlə arvadları qımışıb deyir,
Kazımın qızıdır,dəyməyin ona.

Bu iki aşiqin məhəbbətinə,
Görəsən göyləri kim şahid tutdu?
Biri Banu Çiçək,biri Beyrəkdi,
Bu eşq oyununda ayrılıq uddu.

Adam elə bilir Ay da,Günəş də,
Bu qızdan götürüb nuru,ilahi.
Belə gözəlliyi,belə gözəli,
Özün Yer üzündə qoru,ilahi.

Şəklini hayandan çəksən bu qızın,
Elə məhəbbətlə,gözəl düşür ki.
Sənin ürəyində bitən sevgidən,
Niyə ürəyimə xəzəl düşür ki?!..

Sərhəd dirəkləri başını əysin,
Çalaq havamızı tikanlı teldə.
Koroğlu gücüylə,Nigar eşqiylə,
Dumana bürünək gəl Çənlibeldə.

...İstedadlı şair,tarixçi alim,
Arzu Nehrəmlini tanıyır hamı.
"Dirilik suyu"dur ilk sevgisinin,-
Könlündə taxt quran şair ilhamı.

***

Payız havasıtək qəribdir halı,
Xan qızı Natəvan kimi havalı.
Gözündən su içib şair xəyalı,
Söz-söz ürəyində bitir o qızın.

Hayandan baxasan,birdi ki,birdi,
Bu necə tilsimdi,bu necə sirrdi?
Sevimli alimdi,gözəl şairdi,
Bir eşqdir yazdığı şeir o qızın.

Açılıb yaxası sünbülün dən-dən,
Belə nə gəzirsən bu xırmanda sən.
Ürəyə od düşər hər kəlməsindən,
Gülüşü,baxışı,sehr o qızın.

Vardır hər gözəlin öz təbəssümü,
Necə təsvir edər söz,təbəssümü?
Qalıb çöhrəsində qız təbəssümü,
Bu çiçək qoxusu,ətir o qızın.

Eşqi möcüzədir baş leytenantın,
Dünyanın başını sevgiylə qatın.
Sirrini açmağa bu kainatın,
Göylər Yusifindir,bu Yer o qızın.

O azad torpaqlar hələ qan dadır,
Könlümü verdiyim dağ dumandadır.
Yusifin sevgisi asimandadır,
Payını göylərdən gətir o qızın.

Nə gələn Yusifdir,nə gedən Yusif,
Olubdur özü də bir Vətən Yusif.
Şəhidlik zirvəsin kəşf edən Yusif,
Başının üstündə çətir o qızın.

Dünya öyünməsin dar qəfəsiylə,
Bülbül haray çəkir gözəl səsiylə.
Hər gün igid Yusif təyyarəsiylə,
Uçub yuxusuna girir o qızın.

***

...Baş leytenantın arzusu uşaqlıqdan bəri həmişə səmalarda şahin kimi uçmaq,göydən Yer üzünü, əzəmətli dağları,çayları,şəhərləri,kəndləri seyr etmək olub. Elə bu müqəddəs arzuyla da orta məktəbi bitirən kimi gənc Yusif sənədlərini Latviyadakı Ali Hərbi Aviasiya məktəbinə təqdim edir və yüksək qiymətlərlə də qəbul olunaraq kursant adını qazanır. Təhsilini uğurla başa vuran gənc zabit Yusif Vəliyev Vətənimizin dar günündə,canından çox sevdiyi Azərbaycana döyüş təyyarəçisi kimi qayıdır və dünyaya göz açdığı Naxçıvandakı hərbi hissələrin birində gənc zabit kimi hərbi xidmətə başlayır...

...Yusif təhsilini Riqada alıb,-
Vətənə qayıtdı təyyarəçitək.
Bu gənc leytenantın igidliyinə,-
Vətən sevinəcək,torpaq güləcək...

Qovuşdu ulduzu bu qoşa gəncin,
Hamı alqış dedi bəylə gəlinə.
Ozanlar söz qoşub,dastan söylədi,
Nehrəmdə ucalan eşq heykəlinə...

Hələ getməmişdi "vağzalı" səsi,-
Bu iki cavanın qulaqlarından.
Döyüşə yollanan igid Yusifin,-
Mən də söz açıram dağ vüqarından.

Onun ürəyinə hakim kəsilib,
Vətənə məhəbbət,düşmənə qınaq.
Xoş günlər eşqinə,Vətən naminə,
Hələ qarşıdadır ən ağır sınaq...

İntiqam almağın vaxtıdır daha,
Onların bizimlə görək qəsdi nə?
Tələsin,bir an daləngimək olmaz,
Haydı igidlərim,düşmən üstünə!

Hamı bilirdi ki rahat buraxmır,
Onu yurd sevgisi,düşmən qisası.
Ən gözəl nəğməydi dünyada bəlkə,
Arzunun Yusifə xeyir-duası.

***

...O,evdən çıxanda körpə Zübeydə,-
İlk dəfə dil açıb çağırdı,Ata!..
Qızını bağrına basan qəhrəman,
Təzədən gəlmişdi sanki həyata...

Yusif:--Darıxmayın,tez dönəcəyəm,-
Deyib, qucaqladı əzizlərini.
Sildi Zübeydənin gözünü ata,
Arzu da ərinin alın tərini.

Hər gün gələcəyəm yuxuna sənin,
Səni darıxmağa qoymayacağam.
Hər gün hənirimə isinəcəksən,
Çırpısız,tüstüsüz yanan ocağam.

Solub-saralmayan gülsən,çiçəksən,
Gözümdə qoymuşam suya mən səni.
Xatirə-xatirə bəsləyəcəkdir,
Qırov götürməyən çöl-çəmən səni.

***

...Gözlərin dolubdur,bu nədi,Arzu?
Qoy olsun eşqimiz əbədi,Arzu.
Üzündə təbəssüm,qəlbində təlaş,
İgidim,Yaxşı yol!-söylədi Arzu!

İlahi,sökülən qızıl dana bax,
Sevən könüllərdə həyacana bax.
Vətən sevgisinə,Arzu eşqinə,
Düşmən bağrı yaran qəhrəmana bax!

Yaydı işığını,çıraq oynadı,
Budaq silkələndi,yarpaq oynadı.
Yusif qanadlanıb göyə uçanda,
Elə bil yerindən Boz dağ oynadı...

***

Sinə gərdi ilk sınağa,
Ürəyimiz döndü dağa.
Düşməni bombalamağa,
Uçdu bizim təyyarəçi.

Niyyəti xoş,uğuru bol,
Yaşa,baş leytenant,sağ ol!
Asimanda Vətənə yol,-
Açdı bizim təyyarəçi.

Çəkilmişdi Göy başından,
Qorxmurdu mərmi-qurşundan.
Ulduzların göz yaşından,-
İçdi bizim təyyarəçi.

Sevdası var hər quşun da,
Ovçu durmasın tuşunda.
Ana Vətənin başında,-
Tacdı bizim təyyarəçi.

Göylərin halı qarışıq,
Bizimlədir sülh,barışıq.
Zülmətin içindən işıq,-
Saçdı bizim təyyarəçi.

...Göy üzündən damırdı qan,
Beləmi sökülürmüş dan?
Vətən uğrunda canından,-
Keçdi bizim təyyarəçi.

****

Sərhəd teli könül simi,
Gərək qıraq bu tilsimi.
Göy üzündə şimşək kimi,
Çaxdı bizim təyyarəçi.

Göy üzündən ələnir qan,
Qana batıb sökülür dan.
Düşmənin min oyunundan,
Çixdı bizim təyyarəçi.

Deyəsən çəkilib qürub,
Zalımlar boynunu burub.
Düşməni gözündən vurub,-
Yıxdı bizim təyyarəçi.

***

...Ona vermişdilər sanki dünyanı,
Minəndə öz döyüş təyyarəsinə.
Gülədən qoruyur Ana Vətəni,
Düşmənin önündə gərdiyi sinə.

Qarabağ səması nura boyandı,
Aldı ağuşuna baş lytenantı.
Sərxoş eyləmişdi Yusifi bu eşq,
Vətənçün içəndə ilk hərbi andı.

Vətən səmasında uçduğu zaman,
Ürəyi dönürdü vüqarlı dağa.
Qartaltək qıy vurub hücuma keçir,
Düşmən səngərini bombalamağa.

Tovuzdan baş vurur,Qazaxdan çıxır,
Düşməndən almağa intiqam,qisas.
Sədərək,Qubadlı,Füzuli,Ağdam,
Bizə babalardan qalıbdır miras.

Günəşdən pay alıb sevda nurunu,
Mehrini salmışdı qələm-kağıza.
Yusif xəyalında hər gün yüz kərə,-
Məktub göndərirdi nehrəmli qıza.

***

Yusif Arzuya yazdığı məktubları buludlara büküb,əlçim-əlçim səpirdi təyyarədən. Vərəqlər sap-sarı çiçəyə dönüb bəzəyirdi Yer üzünü. Arzu yerdə bitən sarı çiçəkləri bir-bir dərib qoxlayır, bağrına basmaq istəyəndə,əllərini yandıran gülün ləçəkləri qana boyanıb tökülürdü torpağa... Külək bu qanlı çiçəkləri bir anda uzaqlara sovurub itirirdi Arzunun gözlərindən...Kol-kosa ilişib qalan solğun çiçəklərə hopan bənd-bənd şeir şəkilləri, heyrətləndirib coşdururdu şair Arzunun sevda dolu ürəyini... Arzu hər gecə yuxularında Yusifin təyyarəsi kimi qanad açıb uçurdu qara-boz buludların arasında...Sarı saçları buludların bumbuz şehində islandıqca,xumarlanıb yuxuya gedirdi Arzu xanım. Və hər səhər Yusifin təyyarə səsinə qarışıq zümzüməsinə diksinib oyanırdı yuxudan bu qəhrəman xanımı...

Boynuma haqdan düşən,
Kəməndsən,nehrəmli qız.
Vurulduğum göylərə,
Bülənddsən,nehrəmli qız.

Mən zəvvaram,sən pirsən,
Hardan saysam da,birsən.
Sən ilahi şeirsən,
Bir bəndsən,nehrəmli qız.

Aya çıxıbsan yiyə,
Günəş sənə baş əyə.
Bu sevdalı ürəyə,
Peyvəndsən,nehrəmli qız.

***

Arzu könül vermişdi,
İgid baş leytenanta.
Əfsanəyə dönmüşdü,
Bu sevgi Naxçıvanda.

Naxçıvandan Günəştək,
İşıq saçan Arzusu,
İgidinin dalınca,-
Gözündən atmışdı su...

***

Milli Ordumuzun ilk qurucularından olan təyyarəçi Yusif Vəliyev gecə-gündüz yorulmaq bilmədən Ana Vətənin keşiyində idi.Bu yurdun ilk dəmir qanadlı şahinlərindən oldu qəhraman Yusif.

Yusif dedi,biz də gərək,-
Ordumuza ilham verək.
Dəmir qanadlı şahintək,-
Keçdi hava hücumuna.

Düşmən bağrına xal çəkib,
Gözlərini xəyal çəkib.
Təyyarəyə sığal çəkib,
Keçdi hava hücumuna.

Düşmən bizi şərə çəkib,
Aramızdan bərə çəkib.
Baş leytenant nərə çəkib,
Keçdi hava hücumuna.

Ölümümə çəkmişəm qol,
Vətən,təki sən azad ol!
Yusif bir gündə neçə yol,
Keçdi hava hücumuna.

Mərmi,raket yağa-yağa,
Döşünü verdi qabağa.
Yusif bürünüb bayrağa,
Keçdi hava hücumuna.

Uçdu göylərə qəhrəman,
Bu da son döyüş,ay aman!
Deyib yaşa,Azərbaycan!
Keçdi hava hücumuna.

***

Bizim igid baş leytenant,
Başdan-ayağa bir talant.
Təyyarələr açıb qanad,
Tutub göyləri tüstü,bax.

Sevdim ilahi səsini,
Quşlar da kəsdi səsini.
Təyyarəçi nəğməsini,-
Oxuyan qız sərməstdi,bax.

Ahım sevda çırağıdır,
Xəyallarımı dağıdır.
Hər yan Vətən torpağıdır,
Ürəyim şəhid büstü,bax.

***

Bizimdir bu qanad,bu qol,
İgidlərin uğuru bol.
Düşmənlərin içindən yol,
Açdı bizim təyyarələr.

Yarı şəhid,yarı girov,
Nə yaman düşdü bu qırov.
Düşmən üstünə od-alov,-
Saçdı bizim təyyarələr.

Dönmüşəm şəhid büstünə,
Başımdan çıxan tüstü nə?
Şığıyıb düşmən üstünə,
Uçdu bizim təyyarələr...

***

Dünya başına fırlanırdı Arzunun. Qarabağ torpağında müharibə daha da şiddətlənmişdi.Arzu o qədər həyacanlı idi ki,körpə balası Zübeydəni qucağına alıb,Nehrəmdəki ata evindən Naxçıvandakı evinə qədər uzanan yolu dayanmadan piyada,qaça-qaça getdi. Arzu evə çatanda,öz gözləriylə gördüklərinə inanmadı...Evində dibçəkdə sevə-sevə bəslədiyi çiçəklərin hamısı solub tökülmüşdü.Akvariumda saxladıqları balıqlar da məhv olmuşdular...

Masanın üstündə cüt sevdalısını gözləyən gəlinlik güzgüsü də qəflətən, ortadan çat verib,çilik-çilik oldu. Təlaşdan az qalırdı ki,Arzunun bağrı da bu güzgü kimi çatlayıb,çilik-çilik olsun.Dünya başına fırlandı,gözləri qaranlıq çaldı öz hönkürtüsündən vahimələnib qışqıran Arzunun...

...Kənddən şəhərdəki evinə dönən,
Arzunun gözləri elə dolmuşdu.
Balıqlar ölmüşdü akvariumda,
Dibçəkdə əkdiyi güllər solmuşdu.

Zübeydə ağladı səhərə kimi,
Gözünə getmədi yuxu Arzunun.
Göylər bürünmüşdü qatı tüstüyə,
Didirdi qəlbini qorxu Arzunun.

Qoşa baxdıqları güzgü ilahi,
Çat verib qırıldı ah,birdən-birə.
Arzunun ürəyi o güzgü kimi,
Elə çiliklənib dağıldı yerə...

***

... Şuşanı düşmənlər işğal elədi,
Oldu ürəyimiz ah,çilik-çilik.
Bilməzdik qaçqınlıq-köçkünlük nədir,
Top-tüfəng səsinə öyrəşməmişdik.

Bizim təyyarəmiz vuruldu qəfil,
Tüstüyə,dumana büründü göylər.
Güllə yağışında azan quşlara,
Ta deyən olmadı azad,bəxtəvər.

Şuşa alınmışdı mühasirəyə,
Yadlar çıxmışdılar bu yurda şərik.
Dünyanın ən ağır cəzası bəlkə,
Elindən,obandan düşməkdir perik...

Düşmən yol almışdı üzü Laçına,
Canına düşmüşdü od Qarabağın.
Hələ ilin-günün bu vədəsində,
Şuşanı bürüyən bu qara baxın!...

***

...Güllə yağışına düşdü təyyarə,
Sərin may günündə yandı canımız.
Adını tarixə qırmızı xətlə,-
Yazdı təyarəçi qəhrəmanımız.

Qalxdı Atabəylər məqbərəsindən,
Onun şərəfinə azan səsləri.
O gündən çırpınır tək qanadıyla,
Əlləri qoynunda o nazlı pəri.

Azadlıq Günəşi doğur Şuşadan,
İşığa qərq olub dörd bir yanımız.
Özü də o gündən bir Vətən olub,
Vətən fədaisi qəhrəmanımız.

Asiman şahini o baş leytenant,
Bu dünya durduqca yaşayacaqdır.
Tanrı dərgahında,uca məqamda,
Vətəni köksündə daşıyacaqdır.

Arazdan su içib boy verən igid,
Yaydı şöhrətini Azərbaycana.
Şair,qoy əlini gözünün üstə,
Quş kimi qanadlan,uç Naxçıvana.

Vətənin köksündə dönüb heykələ,
Oldu əbədiyyət nişanı Yusif.
Sevən könüllərin igidlik taxtı,
Bu yurdun şöhrəti,ad-sanı Yusif.

***

İndi tək adamlıq cığırdı Arzu,
İzindən diksinib çığırdı Arzu.
Güzgü qırıqları yığırdı Arzu,
Bir qərib yarası sarımaq üçün.

Yusif Göy yolçusu,Arzu bir çiçək,
Bu güldə şeh də yox,bir udum içək.
İlahi,adamda tale,bəxt gərək,
Bir yastıqda qoşa qarımaq üçün.

Saray var,nə taxtı,nə də şahı var,
Kimdə vurulmağa eşq silahı var?
Başının üstündə tək allahı var,
Bu nazlı sənəmi qorumaq üçün.

Çarmıxa çəkmişəm özüm-özümü,
Susub danışıram hələ sözümü.
Dumanlı dağlara tutdum üzümü,
Yaş tutan gözlərim qurumaq üçün.

***

Vətən alqış dedi Ulu Öndərin,-
Arzuya verdiyi "baş sağlığı"na.
Şeirlər qoşuldu,nəğmə yazıldı,
Bizim qəhrəmanın ucalığına.

Xan qızı Natəvan xeyir diləmiş,
Könlünü verəndə Yusif Arzuya.
Bu iki aşiqin adına hər gün,-
Bir çiçək qoyuram gözümdə suya.

...Yusifin keçdiyi döyüş yolundan,
Qürurla danışır Yaqub atası.
Hələ də qorunur ev muzeyində,-
Oğlundan yadigar hərbi çantası.

İgidlik nəğməsi oxunur indi,
Bu Ana Vətənin hər bir yerində.
Ruhu çiçəkləyib şəhid Yusifin,
Şair Arzusunun şeirlərində

***

Bundan belə, şair Arzu Nehrəmli bütün vətənpərvərlik və qəhramanlıq şeirlərini öz ömür-gün yoldaşı, şəhid igid təyyarəçi baş leytenant Yusif Vəliyevin şərəfinə,onun Vətən uğurundakı qəhramanlığına həsr etdi.

Onda Yusif döyüşə gedərkən, evə tez qayıdacağına söz vermişdi o gözəl Arzusuna...

Arzu bilirdi ki,canından çox sevdiyi Yusif ona heç vaxt yalan danışıb,verdiyi əhdə xilaf çıxmaz... Elə bu inamla,bu ümidlə də hələ də onun yolunu gözləyir.

Qəhrəman təyyarəçinin qayıdacağına hələ də inanır Arzu xanım...

Söz vermişdin gələcəkdin,
Yubanırsan haçandı,gəl.
Qar altından pöhrələnib,-
Bənövşələr açanda gəl.

Ürək deyil bu,koğuşdu,
Yarı yuva,yarı quşdu.
Göy üzündə yerin boşdu,
Təyyarələr uçanda gəl.

Təyyarədir sağın,solun,
Boynuma dolansın qolun.
Eh,bu da son döyüş yolun,
Ağdam,Şuşa,Laçındı,gəl.

***

Belini əymişdi dağlar elə bil,
Ayaqlar altından torpaq qaçırdı.
Topxana meşəsi qalmışdı viran,
Başını götürüb yarpaq qaçırdı.

Qanadı qırılmış təyyarələrə,
Qarabağ səması qan ağlayırdı.
Gecənin gözündən ulduz tökülür,
Sökülə bilməyən dan ağlayırdı.

Qüruba enməyə tələsən Günəş,
Arzunun gözündə mürgüləyirdi.
Göydə qatarından perik quşlar da,
Yusifin dalınca ağı deyirdi.

Xan qızı Natəvan elə ah çəkir,
Ovuda bilmirdi qəzəllərini.
Belə gözü yaşlı görən olmayıb,
Vaqifin o şıltaq gözəllərini.

Yusifin şəklini bağrına basıb,-
Arzu ürəyini qucaqlamışdı.
Mənim "Təyyarəçi nəğmələri"mə,
Onda mələklər də qan ağlamışdı...

***

...Vurulmuşdum səndəki əzəmətə,şaxlığa,
Yenə tut əllərimdən,qayıdaq uşaqlığa.
Qayıt gözümün nuru,qayıdım işıqlığa,
Səni harda axtarım,harda arayım,qayıt!

Sən mənim son istəyim,mən sənin son Arzunam,
Min ocaq çatsaq belə,çətin sənsiz qızınam.
Mən sənin hünərini vəsf eləyən ozanam,
Gəl,ey Tanrı qismətim,ey sevda payım,qayıt!

Təyyarənlə görünsən gözümə bir anlığa,
Dözüb sinə gərərəm mən hər nigaranlığa.
Gedişinlə bu dünya qərq olub qaranlığa,
Sən ey Ülkər ulduzum,Günəşim,Ayım qayıt!

Zübeydə balamızla çox gözlədik yolunu,
Nə olar,boynumuza bir də dola qolunu.
Tarix əziz tutacaq bu sevdası ulunu,
Gözləyir sultanını könül sarayım,qayıt!

Dön uca zirvələrdən,dumanla gəl,çənlə gəl,
Bu divanə könlümə sevgiylə,güvənlə gəl.
Yuxuma gəldiyintək yenə təyyarənlə gəl,
Düşmənlərin bağrını yaran alayım,qayıt!..

***

...Son döyüş qabağı içdi and Yusif,
Başdan-ayağadək bir talant Yusif.
Məbədə dönüb baş leytenant Yusif,
Üstündən bu ölüm sözünü sildi.

Dünya öyünməsin düşmən şəriylə,
Qayıtdı haqq-divan al səhəriylə.
Qəhrəman şəhidlər hünərləriylə,
O saxta tarixin özünü sildi.

Dillərdən düşməyir daha o xəbər,
Bizimdir azadlıq,bizimdir zəfər.
Başını dikəldən Xarıbülbüllər,
Torpağın toz tutan gözünü sildi...

***

...Arzu hər gecə yuxusuna qonaq gələn igidiylə dərdləşir,onun təyyarəsində Vətən səmasında uçub dolaşır,şəkil-şəkil buludların arasında "gizlən-qaç" oynayırlar,Günəşi əllərində top kimi oynadırlar.Yusif əl uzadıb göydən ən parlaq ulduzu dərib verir sevgilisinə...Beləcə,hər gün eyni şəkildə şirinli-acılı

xatirələrlə dolu səhər açılır,axşam olur,yenə al şəfəqli səhər açılır...

Bunların hamısı Qu şərqisinin sədaları altında baş verir...Qu son şərqisini bitirən kimi güllə səsləri bürüyür hər yanı...Hər dəfə də qan-tər içində diksinib ayılır Arzu...

Beləcə, bir qərinədən artıqdır ki,hər gecə təkrar-təkrar möcüzə dolu,sehr dolu bu yuxunu görür,film kimi seyr edir Baş leytenantın Arzusu...

Böyüyüb dağ olmuşdu Nehrəmdəki gədiklər,
Daha duman saxlamır nə zirvələr,nə piklər.
Arzu istəyirdi ki qərib şanapipiklər,-
Hər gecə yuxusunda "Tapdın?,Yox-Yox!" oxusun.

Bir çiçək ayna tutub şehini tək ulduza,
Soyuyan ürəklərdə sevda dönməzmi buza?!
O kimdir,xəyalıyla durub omuz-omuza,
Çəkir ciyərlərinə sarı çiçək qoxusun.

Arzunun dəcəlliyi, Yusifin uşaqlığı,
Başqaydı bu gənclərin sevgisi,qoçaqlığı.
Baş tutardı onların bir yerdə qonaqlığı,
Sac üstündə yayanda qonşu fətir-yuxasın.

Bənövşə qar altında,çıxarıb kolu üstə,
Ahını şam eləyib bir qərib yolu üstə.
Arzu baş qoyub yatır Yusifin qolu üstə,
Oyanantək danışır mələklərə yuxusun.

Dünya başdan-ayağa yarı xeyir,yarı şər.
İlahi,kim nə bilir qismətinə nə düşər.
Bundan belə bu dünya yenə də gözəlləşər.
Qovlasaq aramızdan bu ayrılıq qorxusun.

***

...Qonmuşam təyyarə qanadlarına,
Çırpına-çırpına oxuyan quşam.
Könlümün solmayan arzularından,-
Mən gərək səninçün hey nəğmə qoşam.

Sənin həsrətinin közü başqadır,
Hayandan baxasan,yanar çırağam.
Məhəbbət taxtındır yuxum,əzizim,-
Ahımı başına tac qoyacağam.

Hər yandan gözümə qoşun görünür,
Duracaq yeriyəm təyyarələrin.
Qələbə himnitək səslənsin gərək,-
Mənim məhəbbətim,sənin hünərin!

***

Xəyal da bal dadır bal,göy üzündə,
Mehrini quşlara sal göy üzündə.
Bu dünya durduqca qal göy üzündə,
Bizim də getməyə yerimiz olsun.

Sevdası başqadır vallah,bu köçün,
Sənə bu qatarda ayrı yer seçim.
Dibçək güllərini sulamaq üçün,
Biraz göz yaşımız,tərimiz olsun.

Hər gecə görürəm səni yuxuda,
Gözlərim az qalır boğula suda.
Şəhid nəğmələri oxuyur Qu da,
Sevməyə dərdimiz,sərimiz olsun.

Bənövşəm gözləsin quzeydə kimi?
Kimi vəsf eləyim bu neydə,kimi?
Elə istəyirdik,Zübeydə kimi,-
Bir dünya gözəli pərimiz olsun.

...Sənin son istəyin,Arzunam elə,
Ayrılıq sevdalı ozanam elə.
Gərək öz ahımda qızınam elə,
Hər səhər açmağa sirrimiz olsun.

***

Tanrı qələmindən çıxmış,
Nə gözəl şəkildi Arzu.
Boş görüb Yusifin yerin,
Göylərə çəkildi Arzu.

Ürəyi dönübdür neyə,
Dili öyrəşib gileyə.
Həsrət üşütməsin deyə,-
Ahıma büküldü Arzu.

Ayrılıqdan nur saçandı,
Nurunda güllər açandı.
Tüstüsüz yanır haçandı,
Nə ocaq,nə küldü Arzu.

Yarı qadın,yarı mələk,
Hayandasan,biz də gələk?!
Göy üzündən lələk-lələk,-
Nə gözəl töküldü Arzu.

***

Göy üzündə şəhid olmaq,
Nəsib olmaz hər adama.
Bir qərib quş dimdiyində,
Ahı dönüb yanan şama.

İgid təyyarəçimizin,
Şəhidlik ünvanı göylər.
Əbədi saxlar özündə,
Bu şöhrəti,şanı göylər.

...Məzar üstə bitən güldən,
Dərib dəstə bağlamazlar.
Heykəl qoyarlar igidə,
İgidə yas saxlamazlar...

***

Qalx "Gəlin qaya" dağına,
Ahını al qucağına.
Səssiz uçan uçağına,
Göy üzü dardı Yusifin.

Təyyarəsi dəmir mələk,
Düşmən olub ələk-vələk.
Ürəyində çiçək-çiçək,-
Arzusu vardı Yusifin.

Ərimәyib hələ buzlar,
Axmaz buz tutan ulduzlar.
"Gizlən-qaç" oynayan qızlar,
Göydə tapardı Yusifi.

Dəmir qanadlı bir quşdu,
Buludlara nəğmə qoşdu.
Səma üçün doğulmuşdu,
Göylər apardı Yusifi.

Xatirələr dinən dəmdə,
Eşqdir ürəyə məlhəm də.
Büstü ucalan Nehrəmdə,
Ömrü bahardı Yusifin.

Göy üzü mavi əbası,
Tutub aləmi sədası,
İndi doğma el-obası,
Nə bəxtiyardı Yusifin.

## YURDUN QƏHRƏMANLIQ PAYI

...Baş leytenantın alayı,
Yurdun qəhrəmanlıq payı.
Xatırlayıb on iki mayı,
Şahə qalxıb təyyarələr.

İgidlik düşüb püşkünə,
Əhsən,bu döyüş məşqinə!
Yusif Vəliyev eşqinə,-
Şahə qalxıb təyyarələr.

Arzu xanımın səsiylə,
Sevgisiylə,həvəsiylə,
Təyyarəçi nəğməsiylə,
Şahə qalxıb təyyarələr.

Alışdınsa,sönmək yoxdur,
Ucalmaq var,enmək yoxdur.
Son döyüşdə - dönmək yoxdur,
Şahə qalxıb təyyarələr.

Nehrəmdə ucalan büstə,
Yaraşıqdır şeir,bəstə.
Qəhrəmanın başı üstə,
Şahə qalxıb təyyarələr.

Düşməni hikkəsi boğur,
Bizimdir qələbə,uğur,
Günəş də Nehrəmdən doğur,
Şahə qalxıb təyyarələr.

İgidlərin hünərində,
Ordumuzun zəfərində,
Arzunun şeirlərində,-
Şahə qalxıb təyyarələr.

***

...Yusifin büstünə təzim eləyir,
Başını dik tutan Qaraquş dağı.
Dünyanı nuruna boyayan Günəş,
Nehrəmə baş əyir hər qürub çağı.

Dağlar aynalanır Əlincəçayda,
Quşların səsinə qol götürən var.
Bir gün də,Yusifin təyyarəsində,
Durna qatarları kəndə qayıdar.

Məmnundur Yusifin igidliyindən,
Ötən aylar,illər,keçən qərinə.
Nəqərat yeridir Arzunun ahı,
Arazın yarımçıq nəğmlərinə.

***

...Azadlıq pərisi,sübh mələyidir,
Şəhid xanımları bu kainatın.
Bahar Günəşitək nur saçır indi,
Əbədi Arzusu baş leytenantın.

Bitsin Yer üzündə müharibələr,
Silahlar əllərdə olsun oyuncaq.
Vətən səmasını bassın bağrına,
Bayram tonqalının tüstüsü ancaq.

Silah daşımağa,bomba atmağa,
Ehtiyac qalmasın təyyarələrə.
Qələbə marşımız,zəfər nəğməmiz,
Gur səslə yayılsın gərək hər yerə!

Savalan qaldırıb ağ bayrağını,
Həsrətdən sulanıb Arazın gözü.
Qoynuna səsləyir baş leytenantı,
Zərdüşt ocağının tüstüsü,közü.

***

Hər şəhid xanımı bir qəhrəmandır.
Vətən sevdası var hər niyyətində.
Bir bayraq ucalıb dik tutar başın,
Hər şəhid eşqində,məhəbbətində.

Suyu can məlhəmi Əlincəçay da,-
Hər bahar gələndə kükrəyib-daşır.
Şəhid məzarları boy-boya durub,
Vətən torpağıyla hey salamlaşır.

Bayram tonqalları yanır Nehrəmdə,
Göylərdən hər yana nur ələnibdir.
Qəhrəman Yusifin Vətən sevgisi,
Arzunun qəlbində nəğmələnibdir.

Asılıb təyyarə qanadlarından,-
Arzusu ulduztək sayrışan gözəl.
Vətən torpağıtək,yurd sevgisitək,
Yusifin ruhuna qarışan gözəl...

## ZƏFƏR NƏĞMƏSİNİ OXUYUR QUŞLAR

...Torpaq qucaqladı qəhrəmanını,
“Vətən oğul dedi”  baş leytenanta.
Arzunun ilk sevgi xəritəsidir,
Yusifdən yadıgar o hərbi çanta.

Qarabağ səması nura boyanıb,
Xoşbəxtlik daşıyır köç qatarları.
Belini dikəldən Xarıbülbüllər,-
Gülüb qarşılayır hər il baharı.

Dərib nəfəsini,ulayır Boz Qurd,
İlahi,bu səsdə neçə naxış var.
Arzuyla Yusifin Vətən eşqinə,
Zəfər nəğməsini oxuyur quşlar.

Təyyarə səsindən asılı qalıb,
Əlləri qoynunda bir nazlı pəri.
Mənim “Təyyarəçi nəğmələri”mə,-
Bir şəhid Arzusu nəqarət yeri

***

...Arzu Nehrəmlinin "Bir igid var idi" şeirinə bəstələnmiş mahnısını Şəmistan Əlizamanlı elə gözəl,elə ilhamla,elə hüznlə,elə ayrılıq dolu,həsrət dolu,elə ümidlə oxuyurdu ki...

Hər addımımda,hər göz qırpımımda,hər ürək döyüntümdə bu nəğmənin harayını eşidirdim...Ruhum qol götürürdü bu nəğmənin sevgisiylə...Bu nəğmə başdan-ayağa ayrılıq,həsrət olan nakam bir eşqin harayından,nisgilindən yaranmış bir simfoniya idi.Ürəyə işləyirdi bu ilahi nəğmə...Təyyarə qanadlarına üzümü söykəyib,bu nəğməni ömür boyu dinləmək keçirdi könlümdən...

Bu dastanı tamamlayıb,nöqtə qomaq istəyərkən qəfildən, Yerə lap yaxın məsafədə başımın üstündən bir döyüş qırıcı təyyarəsi şığıyıb keçdi ildırım sürətiylə.Ağaclar da təzim elədi bu döyüş təyyarəsinə...Həyacandan qələm əlimdən düşdü masamın üstünə..Bu əsərimin baş qəhrəmanı,baş leytenant Yusif Vəliyevin təyyarəsiydi...Günəşin nurunda par-par parıldayan dəmir qanadlarıyla son dəfə sığal çəkirdi aşiqi olduğu Göy üzünə...Sanki son dəfə seyrinə çıxmış-

dı intizarında olduğu bu Vətən torpağının. Torpaq da,Göy üzü də xumarlanmışdı təyyarəçimizin bu ürək dağlayan,könül qovuran sevgisindən...

Hamının intizar dolu,təlatüm dolu baxışları arxasıyca dikilib qalmışdı təyyarənin....Təyyarənin tüstüsü başıma dolanırdı,gözlərimi sığallayırdı, yoluma işıq tutmuşdu...İgid Baş qəhrəmanımın təyyarəsinə döyüş meydanıydı ürəyim...

...Müğənni oxuyur,"Dəmir qanadlı,-
Kəhkəşan aşiqi bir igid vardı"...
Büstünü əmanət verib torpağa,-
Ruhunu sevdiyi göylər apardı.

Arzunun ürəyi göylərdən böyük,
Göy üzü Arzunun ürəyi boyda.
Bizim təyyarəçi baş leytenantın,-
Eşqiylə parlayır Günəş də,Ay da.

Azadlıq marşları nəqərat olub,
Mənim "Təyyarəçi nəğmələri"mə.
İndi açıq səma,mavi Göy üzü,
Açıb ağuşunu ilham pərimə.

***

...Mənim “Təyyarəçi nəğmələri”mə,
Elə qol götürüb uçurdu Yusif.
Üzündən öpməyə gəlmişdi bəlkə,-
Bağrıma basdığım bu yurdu,Yusif.

Təyyarə səsiylə qalxan,ucalan,
Ölümü həm gerçək,həm də ki yalan.
Düşmənin canına vəlvələ salan,
Həsrəti bir alay,bir Ordu Yusif.

Uçur təyyarələr başım üstüylə,
Qol-boyun olubdur göylər tüstüylə.
Nehrəmdə ucalan o tunc büstüylə,
Sevən könüllərdə ev qurdu Yusif.

Yurdun keşiyində mərdlər dayanıb,
Xarıbülbüllər də çoxdan oyanıb.
Qarabağ səması nura boyanıb,
Hər yerdə,hər yanda bax,vardı Yusif.

Qələbə ritminə bax bu şeirdə,
Gülüb qol götürüb ilham pərim də.
Mənim "Təyyarəçi nəğmələri"mdə,-
Əbədi yaşayan bahardı Yusif...

# EPİLOQ
## 1

..Min doqquz yüz doxsan ikinci ilin may ayında Şuşanın işğalından dörd gün sonra,Laçının işğalından altı gün əvvəl ,Qarabağ səmasında torpaqlarımızın azadlığı naminə canını qəhrəmancasına fəda edən şəhid təyyarəçi baş leytenant Yusif Vəliyevin qəfəsdə çırpınan arzuları uzun illərdən sonra çiçəkləmişdi...

...Nəhayət səkkiz noyabr iki mim iyirminci ildə Ali Baş Komandan İlham Əliyevin dəmir iradəsi,Ordumuzun danılmaz şücayəti,xalqımızın misilsiz birliyi nəticəsində,uzun illərdən bəri işğalda qalmış torpaqlarımız yağı taptağından azad olunaraq,dövlət suverenliyimiz və ərazi bütövlüyümüz yenidən bərpa olundu.Bir zamanlar Qarabağ səmasında qara tüstüsünü qara bayraq kimi qaldıran döyüş təyyarələrimiz,indi Bakının geniş,açıq səmasını Üç rəngli Azərbaycan Bayrağımızın ecazkar rəsmiylə bəzəyib,qanad-qanada uçurlar.

...Qəhrəman təyyarəçimiz Vəliyev Yusif Yaqub oğlunun Azərbaycanın hər guşəsindən görünən Nehrəm kəndindəki əzəmətli büstü xalqımızın sevgi dolu

ürəyində boy verən möhtəşəm,əbədi yaşar bir abidədir...Şəhidimizin Tomris qeyrətli,Nüşabə ləyaqətli ömür-gün yoldaşı görkəmli alim-şair Arzu Nehrəmlinin tez-tez o müqəddəs məkanı ziyarət etməsi,Yusifin həyatından bəhs edən şeir və hekayələri ürəkləri riqqətə gətirən bir qələbə himni,zəfər simfoniyasıdır.

Şəkillərində elə gözəl,sevgiylə gülümsəməyiindən bilinir ki, o bircəcik ciyərparəsi Zübeydə xanımın adlı-sanlı hüquqşünas kimi, qanunlarımızın keşiyində durmağından çox məmnundur bizim qəhrəman təyyarəçimiz...

İndi də hər gün başının üstündən bir neçə dəfə cənubdan şimala və əksinə,şimaldan cənuba sarı uçan,tüstüsü gözlərindən xeyli vaxt çəkilməyən sərnişin təyyarələrini ötürürür intizar dolu baxışlarıyla təyyarəçi Yusifin bu tənha gözəli...

Külək nəmli kirpiklərinii sildikcə,o sevda dolu,ayrılıq çeşməli ürəyi qübarlanırdı Arzu xanımın.Bir vaxtlar da Baş leytenantın döyüş təyyarəsinin arxasınca,ümid dolu gözləriylə su ata-ata,bax beləcə yola salırdı qəhrəmanımızı üzü göylərə sarı...

...Çiçəklərin çöhrəsində xumarlanan sübh şehi kimi parıldayırdı Arzunun lalə yanaqlarına sığal çəkən göz yaşları...

Dəstələnib qanad-qanada uçan durnalar da, qəfəsdə məsum-məsum çırpınan divanə bülbüllər də, buludların arasından çıxıb şığıyan döyüş təyyarələri də bu tənha gözəlin şeirlərində vəsf etdiyi əfsanəvi qəhrəmanımızdan və şair Arzu Nehrəmlinin igid təyyarəçimizə layiq məhəbbətindən, əzəmətindən, qürurundan və ona həsr olunmuş nəğmələrdən ürək dolusu danışırdılar.

Ürəyimi nə gözəl suvardın göz yaşınla,
Bağrıma hardan basım ahını,tənha gözəl?
O zalım ovçu axı,məni nişan almışdı,
Tora kim saldı elə ahunu,tənha gözəl?

Bu Yer üzündə səndən doğma,əziz təkim yox,
Sənin kimi təklənib,həsrətini çəkim,yox?
Bu dərdi yaşatmağa keşiyində həkim yox,
Hər yerdə qərib gördüm ruhunu,tənha gözəl.

Karvan da yoxa çıxıb,yolun azıbdır sarvan,
Hələ sənin nurunla üzümüzə gülür dan.
Bundan belə heç nədir mənim verdiyim fərman,
Gərək nökərin olsun bu şahın,tənha gözəl...

***

Bura mənim qürub yerim,sən nurlu dan,
Gör bağrıma lalələrmi sıxıbdır qan?
Daha burda yoxdur məndən könül uman,
Bura mənə qürbət eldi,ömrüm-günüm.

Bir uçağın ikimiz qoşa qanadı,
Arzum imiş büstüm olan daşın adı.
Qu ömrünü heç kim belə yaşamadı,
Bu sevdanı aləm bildi,ömrüm-günüm.

Sənli günlər yaraşıqdır yaddaşıma,
Xatirələr ayna tutub göz yaşıma.
Burda sığal çəkən mənim baş daşıma,-
Orda səni öpən yeldi,ömrüm-günüm.

Elə gözəl qalıbsan ki sən yadımda,
Başın üstə nur payındır bax,adım da.
"Təyyarəçi nəğmələri"n qanadımda,-
Bu dünyanı gəzib gəldi,ömrüm-günüm...

Nə istəsən,indi bizim Nehrəmdə var,
Çətir tutmaz göz yaşında islanan yar.
Şəklimizi bir vaxt qoşa çəkən sular,
Hələ lildi,hələ lildi,ömrüm-günüm...

***

Qanadından dəyən güllə,
Yolunu kəsdi Yusifin.
Ömür karvanı köçməyə,
Yaman tələsdi Yusifin.

Sevən ürəklərdi yolu,
Məhəbbəti qədim,ulu.
Gül-çiçəklə,eşqlə dolu,
Qəbrinin üstü Yusifin.

Nehrəm kəndi öz canında,
Tapdı şöhrətin,şanın da.
Şəhidlər Xiyabanında,
Ucaldı büstü Yusifin.

***

Durnalar köçür dəstəylə,
Ayrı avazla,bəstəylə.
Bəzənib şəhid büstüylə,
Nehrəm kəndi çiçək-çiçək.

Burda igid,ər kəlməsi,
Dilində zəfər kəlməsi.
Şəhidlərin hər kəlməsi,
Sətirləndi çiçək-çiçək.

Son şərqini oxuyan Qu,
Gözlərimdən içmişdi su.
Baş leytenantın Arzusu,-
Ətirləndi çiçək-çiçək.

Yollar susuz çaymış elə,
Hər iz ruzi,paymış elə.
Arzu göydə Aymış elə,
Bədirləndi çiçək-çiçək.

Böyüyüb ciyarparəsi,
Ruhunun eşqi,çarəsi.
Qəhrəmanın təyyarəsi,
Göydən endi çiçək-çiçək.

Xatirən qalıb əlimdə,
Hara istəsən gəlim də.
Sənə verdiyim könlümdə,
Həsrət dindi çiçək-çiçək.

***

...Indi hər il Səkkiz Noyabr tarixində dost Dövlətlərin rəhbərlərinin iştirakıyla Bakıda Azadlıq Meydanında Böyük Qələbəmizin şərəfinə ZƏFƏR PARADI keçirilir. Səkkiz Noyabr Bütün dünyanın diqqəti bizdə olan günüdür. Qələbə bayramımız, Zəfər günümüzdür.

...Üç rəngli bayrağa baş əyən əsgər,
Biraz da qürurlu,şax dayan,əsgər.
Sən ey "Vur komandir,vur", deyən əsgər,
Hər yaylım atəşin,odun Zəfərdir.

Sərhəd tellərinə gəl mizrab vuraq,
Zəfər nəğməsiylə ayağa duraq.
Şəhid heykəlidir bizdə hər bayraq,
Bayrağım,şəhidim,adın Zəfərdir...

Şəhidlər torpağa axıtdığı qan,
Gül-çiçək bitirib,bəzənib hər yan.
Təyyarəçi Yusif,cənab komutan,
Sənin də gözlərin aydın,Zəfərdir.

Qaçıb igidlərin gözündən yuxu,
Ay Əlirza Həsrət bir şeir oxu.
İlham Əliyevin “Dəmir Yumruğ”u,-
Bir də sizi doğan qadın Zəfərdir...

**

...Onda salmışdılar Vətəni şərə,
Onda zəncirliydi haqqın qolları.
Keçir Arzusunun şeirlərindən,
Qəhrəman Yusifin döyüş yolları.

Şəstlə addımlayır qalib Ordumuz,
Başını dik tutub bax,Azərbaycan.
Ali Baş Komandan İlham Əliyev,-
Qürurla danışır tribunadan.

Zəfər günümüzdə dünyaya gəldi,
Yusifin nəvəsi toy-büsat kimi.
Bir körpə səsi də qoşuldu elə,
Zəfər nəğməmizə nəqərat kimi.

Eh,indi ərinin şəkillərini,
Göstərir şipşirin nəvələrinə.
Yenə fikirlidir,yenə qəmlidir,
Gözləri yol çəkən o Arzu nənə.

Arzu çətir tutub xatirələri,
Hər gün vəsf eləyir igid ərini.
Zübeydə bala da hey şirin-şirin,-
Öpür atasının şəkillərini.

***

...İndi adlı-sanlı hüquqşünasdır,
O körpə qızcığaz Zübeydə bala.
Belə əzəmətli,möhtəşəm olur,
Eşqdən,məhəbbətdən qurulan qala.

Neçə elm ocağı alim qızını,-
Aldu ağuşuna balası kimi.
Bakının könlünü oxşadı Arzu,
Nehrəmin pərişan lalası kimi.

Qoca da,cavan da baş əyib keçir,
Bu qızın eşqinə,dəyanətinə.
Hər yerdə abidə ucalsın gərək,
Arzunun əbədi məhəbbətinə!

...Gözün aydın olsun,cənab komutan!
Şöhrətin yayılıb hər yana sənin.
Balanız Zübeydə hüquqşünastək,
Durub keşiyində Ana Vətənin!..

***

Yuxuma girmişdi təyyarəçimiz,
Mehriban-mehriban gülümsəyirdi.
Məqamı ucadan uca igidin,-
Pəmbə buludlara başı dəyirdi.

Dillərdə dastansan ey baş leytenant,
Arzun çiçəkləyib ilk bahar kimi.
Günəş də nurunu Nehrəmdən alır,
Çiynində parlayan ulduzlar kimi.

Sənin təyyarənin qanadlarından,
Başımın üstündə çətir tutmuşam.
Alıb ağuşuna göylər məni də,
Qatardan ayrılmış bir qərib quşam.

Vurdu ürəyimdən məni bu sevda,
Ayrılıq gülünün qoxusu kimi.
Bu da son şərqinin melodiyası,
Sənsiz oxuyuram hələ Qu kimi.

...Dağıldı buludlar,açıldı hava,
Ötüşdü vaxt,zaman,keçdi qərinə.
Arzunun yazdığı şeirlər indi,
Dönüb təyyarəçi nəğmələrinə.

Bizdə məhəbbət də,igidlik də var,
Qəhrəman bu yurda,bu elə bax-bax.
Arzunun əbədi məhəbbətindən,-
Yusifə ucalan heykələ bax-bax!

Zirvələr gözəli bayrağımıza,
Hər şəhid məzarı olub istehkam.
Azadlıq nurudur Azərbaycanın,
Ali Baş Komandan Əliyev İlham.

Qələmi qanıma batırıb yazdım,
Min kərə dil açdı sinəmdə ürək.
Tarixin silinməz qan yaddaşına,-
Yazdığım bu əsər ad olsun gərək.

***

Tər çiçək üstündə şeh damcısıdır,
“Dirilik suyu”dur,bir damcı sudur.
Bir şəhid ömrünün davamçısıdır,
Vətən yarasına məlhəmdir Arzu.

Ahı misra-misra şeir adamdır,
Bənd-bənd bölünsə də,bütövdür-tamdır.
Yarı pərvanədir eh,yarı şamdır,
Yananda bir özgə aləmdir Arzu.

“Tənha qu nəğməsi” sevgi payıdır,
Döyüşə gedənlər bir-bir qayıdır.
Sübh yeli üzündən öpüb oyadır,
Deyir ki,nərgizim,laləmdir Arzu.

***

... Ey Vətən şahini Yusif komutan,
Bu Vətən sevgindir,göy üzü butan.
Sənin şöhrətini bayraqtək tutan,
Bu yurda əmanət Arzun yaşayır.

Hər şəhid torpağa düşən dən kimi,
Cücərib böyüdü bir Vətən kimi.
Düşmənə göz dağı təyyarən kimi,
Adına yaraşan qızın yaşayır.

Ruhun da dönmüşdün bir təyyarəyə,
Düşmənlər hər yerdən sənə baş əyə.
Vətən hənirinə isinər deyə,
Ocağın yaşayır,közün yaşayır.

Təyyarən nur payın sökülən danda,
Sevib arxalandın içdiyin anda.
Səni vəsf etməyə Azərbaycanda,
Gör neçə bəxtəvər ozan yaşayır.

Bəlkə köz götürüb bu sim Arzudan,
Gəldi bu möcüzə,tilsim Arzudan.
Qəhrəman Yusifdən,alim Arzudan,
Deyərlər,bu şeiri yazan yaşayır.

Əlirza Həsrətəm,aşiq bu yurda,
Yazıb dastanımı bitirdim burda.
Daha gedən yerim "Segah"da,"Şur"da,-
Bahara çevrilən xəzan yaşayır.

***

Mənalı hər baxış sökülən dandı,
Hər eşqə düşəndə ürəyim yandı.
Bəlkə suyundandı,havasındandı,
Gözəllər qocalmır heç,Naxçıvanda.

Təbiət hay verər durub səsləsən,
Özüm oxuyaram,nəğmə bəsləsən.
Hər dəfə vurulmaq,sevmək istəsən,
Əyilib  Arazdan iç, Naxçıvanda.

Möminə xatundan,Arzu alimdən,
Nə qədər istəsən,danışar Vətən.
Qoy "Gəmiqaya"dan köz götürüm mən,
Özünə bir ocaq seç Naxçıvanda.

Belə dik tutmuşdu başını Vətən,
Onda qurtulanda Cavid də şərdən.
Qəhrəman Yusifdən,Atabəylərdən,
Nə gözəl düzəlib köç Naxçıvanda.

Sönməz atəşiyəm Zərdüşt közünün,
Sevdası başqadır şair sözünün.
Hər şəhid məzarı bu Yer üzünün,-
Başına qoyulan tac,Naxçıvanda.

...Hər misra üzünə gülümsəyən dan,
Arzuya,Yusifə layiq bu dastan.
Hər tərəf çəmənzar,hər yan gülüstan,
Ay şair,qanadlan uç Naxçıvanda.

***

Daha Qarabağda çiçək-çiçəkdir,
Torpağa tökülən hər şəhid qanı.
Bürünsün səsinə azad quşların,
Göy üzü olmasın döyüş meydanı.

Böyük əsərlərin bəzəyi olub,
İgid təyyarəçi Yusifin adı.
Şəhid məzarları üstündə elə,
Hər bayraq çırpınan mələk qanadı.

İlahi,Vətənin üfüqlərindən,-
Günəşi ayna tut ilham pərimə.
Səma qol götürsün,bulud oynasın,
Mənim "Təyyarəçi nəğmələri"mə!

**SON**

## İçindəkilər:

**Təyyarəçi nəğmələri**..........................................................3

**Proloq**..........................................................4

**Zirvələr göstərir əzmin, vüqarın**..................................6

*...ELƏ BAĞLIYDILAR BİR-BİRLƏRİNƏ,*
*YUSİF ZƏVVAR İDİ, ARZU PİRİYDİ*

**Yurdun qəhrəmanlıq payı**..........................................54

**Zəfər nəğməsini oxuyur quşlar**..................................59

**Epiloq**..........................................................64

“Elm və təhsil” nəşriyyatının direktoru:
**İNAL MƏMMƏDLİ**

**Dizayner:** Zahid Məmmədov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 06.01.2026
Şərti çap vərəqi 5,2. Sifariş № 04
Kağız formatı 60x84 1/16. Tiraj 300

**Kitab "Elm və təhsil"** nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4